# QLOBAL SIYASI PROSESLƏR ÇOXQÜTBLÜ BEYNƏLXALQ MÜNASIBƏTLƏR FONUNDA

**S.T.CƏFƏROV**
***Bakı Dövlət Universiteti***

XXI əsrin əvvəllərindən başlayaraq dünyada baş verən proseslər «birqütblü» və yaxud «birmərkəzli» dünya ideyasını anoxronizmə çevirməyə başladı. Artıq baş verən proseslər yeni dünya düzəninin yaradılmasını tələb edirdi. Əgər bəşər tarixinin inkişaf dövrlərində stabilliyin və dünya düzəninin təmin edilməsində daha çox «zorakı qüvvə»yə üstünlük verilirdisə, XX əsrin 70-80-ci illərindən etibarən «yumşaq qüvvə» amili sürət götürməyə başladı. Bu proses özünü əsasən lokal deyil, beynəlxalq miqyaslı qarşıdurmalarda göstərir. XXI əsrin əvvəlində baş verən proseslər kiçik və zəif dövlətlərə «kəskin qüvvə» tətbiq etmək istəyən dövlətlərin qələbələrinin daimi deyil, keçici və müvəqqəti, xəyali olduğunu sübut etdi. III minilliyin əvvəllərində baş verən ABŞ-Əfqanıstan, ABŞ-Iraq, ABŞ-Iran, Rusiya Gürcüstan qarşıdurmaları fonunda bir dövlətin öz iradəsini başqalarına diktə etmək cəhdləri öz gücünü və cazibədarlığını itirməyə başlayır. 2008-ci ildə baş verən qlobal dünya böhranı bu prosesə xüsusi təkan verdi. Beynəlxalq tədqiqatlarda artıq çoxqütblü dünya və yaxud «çoxmərkəzli dünya» anlayışları özünə geniş yer tapmağa başlayır. Azərbaycan Respublikasının prezidenti Ilham Əliyev cənabları müasir qlobal gerçəkliyi bu cür ifadə edir: «Dünyada hər şey qarşılıqlı bağlılıq təşkil edir. Bunu bütün ölkələr nəzərə almalıdır. Dünya cəmiyyətinə biganə qalmaq, ona sayğısızlıq göstərmək heç bir yaxşı nəticəyə gətirib çıxara bilməz. Bəli, bu reallıqları biz nəzərə almalıyıq. Lakin öz taleyimizi yalnız özümüz həll edirik».

Xəfiyyəçiliyin birinci prinsipi olan «öz qarşındakını özündən ağıllı bil» deyiminə oxşar «qarşında duran dövləti özündən güclü bil» ifadəsi beynəlxalq münasibətlərin əsas prinsipinə çevrilərək fövqəldövlətləri düşünməyə vadar edir. Bir vaxtlar O.Şpenqlerin söylədiyi «Qədim Romanın dünyanın böyük hissəsinə ağalıq etməsinin səbəbi yalnız qüvvə çoxluğunda deyil, həm də öz müqəddəratını təyin etməkdən imtina edən məğlub xalqların müqavimətinin zəifliyi idi» fikri artıq müasir dövrdə özünü demək olar ki, doğrultmur. Dediklərimizə tanınmış amerikan tədqiqatçısı S.Hantinqtonun fikirləri nümunə ola bilər. S.Hantinqton göstərir ki, mövcud dünya nizamını «tək-çoxqütblü hibrid nizamı» kimi səciyyələndirmək olar, beləki bir fövqəldövlətin bu və ya digər fəaliyyəti həyata keçirmək üçün qəbul etdiyi qərarlara daha az güclü, lakin öz regionlarında üstünlüyə malik olan və kondominiumu təşkil edən dövlətlərin: Böyük Britaniyanın, Fransının, Almaniyanın (Fransa Almaniya kondominiumu), Yaponiya, Rusiya və Çinin razılığı tələb olunur. Hantinqton hesab edir ki, bu şəraitdə aparıcı dövlətlər arasında qarşılıqlı münasibətlərin səmərəliliyini artırmağa və dünyada qüvvələrin sabit tarazlığını yaratmağa imkan verən iki

geostrateji üçbucaq yaranır: ABŞ-Avropa Birliyi – Rusiya və ABŞ-Çin-Yaponiya. Bu halda qloballaşma real plüralizmi və istər ayrı-ayrı ölkələrin, istərsə də beynəlxalq birliklərin tarixi, dövlət, dini, milli, mədəni, sivilizasiyalı inkişaf formalarının hüquq bərabərliyini nəzərə alan polisentrik proses kimi təzahür edir (1, 130).

II Dünya müharibəsindən sonra ABŞ işğalçı rejimi Yaponiyadan milli tarixi düşüncənin daşıyıcısı kimi kollektiv strukturların dezinteqrasiyasını tələb etdilər. Lakin başlayan liberallaşma ənənəvi cəmiyyətin sadə dağılmasına gətirib çıxarmadı. İdarə edən elita başqa proqram təklif etdi: cəmiyyətin ənənəvi strukturlarını sındırmadan, icma strukturları, dövlət qarşılıqlı təsirinin bələdçisi kimi istifadə etməklə dövlətin məqsədlərini dəyişmək. Beləliklə, Yaponiyada modernləşmənin tapşırıqlarına mədəniyyət deyil, modernləşməni həyata keçirməyi arzulayan rəhbər elita mədəniyyəti uyğunlaşdı. Yaponlar öz sivilizasiyaları əsasında modernləşdilər: sosiomədəni cəhətdən dəyişmədən texnoloji inqilab həyata keçirdilər.

Cənub-Şərqi Asiya yeni sənaye ölkələri və Hindistan bu yolla getsələr də, uzunmüddətli perspektivdə uğurları Çinlə müqayisədə elə də əhəmiyyətli olmadı. Çin öz sosial və siyasi dəyərlər sistemini dəyişmədən Qərbin təsərrüfat və texnoloji sistemini özünüküləşdirməklə məşğul idi. Rusiya tədqiqatçılarının fikrincə, Çin qərbin deyil, öz rasionallığı əsasında inkişaf nümunəsi sayılır. Bu rasionallıqda siyasi sinif və xüsusən də bürokratiya sadəcə funksiya daşıyıcıları olmayıb, həm də vətənpərvərlərdirlər. Burada rasionallıq – dekartçılıq deyil, siyasi praqmatizmin artan payı ilə uğyunlaşan konfusionizmdir (2, 5).

Çoxqütblülük tərəfdarları təkqütblü qloballaşmanın birmənalı şəkildə ABŞ-ın himayəsi ilə yaradılan hakim yeni dünya nizamı hesab edirlər. Bu tezis 1998-ci ildə məxfilikdən çıxarılmış «Yeni əsr üçün təhlükəsizlik strategiyası» adlı sənəddə təsdiqini tapmışdır. Həmin sənəddə qəti şəkildə bildirilir ki, ABŞ ölkədə iqtisadi yüksəlişi qoruyub saxlamaq üçün xarici ticarətini genişləndirməlidir: Dünya öz tərəqqisi naminə bizim ixracımız, sərmayələrimiz və ideyalarımız üçün açıq olmalıdır» (3, 136).

Ümumiyyətlə, Amerikanın hegemonluğu altında həyata keçirilən qloballaşmanın gələcəyi bir sıra tədqiqatçılar arasında ciddi narazılıqlar doğurmaqdadır. Onların fikrincə, bu cür qloballaşma dünyanın ABŞ-ın nəzarəti altında idarə edilməsinə gətirib çıxaracaqdır. Məşhur tədqiqatçılar bu proseslərin digər ölkələrə baha başa gələcəyini söyləyirlər. Məsələn, görkəmli tədqiqatçı Vallerstayn qeyd edir ki, bizi dövlət daxilində hüquqların məhdudlaşdırılmasından qurtulmağımızla dünya səviyyəsində hüquq bərabərliyi təhlükə altında olacaq. Mümkündür ki, tarixdə ilk dəfə olaraq Amerika yarı qul və yarı azad olmaqdan qurtaracaq. Eyni zamanda bütün qalan dünya daha çox ifadə olunmuş formada azad və qul tənlərə bölünəcəkdir. Əgər 1945-ci ildən 1990-cı ilə qədər əhalimizin 10%-nin gəlirlərini yüksək səviyyədə saxlamaq üçün digərlərinin istismarını 50% gücləndirmək lazım gəlirdisə, təsəvvür edir ki, əhalimizin 90%-nin gəlirlərini yüksək səviyyədə saxlamaq üçün nələr lazım olacaqdır! Daha çox istismar tələb olunacaqdır və bu da yəqin ki, üçüncü dünya xalqlarının istismarı hesabına olacaqdır (4, 75; 150).

Tədqiqatçıların bir qrupu qeyd edir ki, artıq keçən əsrin 70-80-ci illərindən başlayaraq fövqəldövlətlərin fövqəladəliyi haqqında fikirlər dəyişikliklərə uğramağa başlamışdır. C.Rozenaunun təbirincə desək, nə vaxtsa doğru kimi fövqəldövlətlər elə də fövqəl, kiçik dövlətlərsə elə də kiçik və zəif deyillər. Enerji resurslarına malik olmaq, onlara yiyələnmək səviyyəsi və bir sıra digər transformasiya prosesləri

«güclü» dövlətlərlə «kiçik» və «zəif» sayılan dövlətlər arasında qüvvələr balansını dəyişdirdi. Iranın, Venesuella və Şimali Koreyanın ABŞ-a, Gürcüstan və Estoniyanın – Rusiyaya qarşıdurması təcrübəsi göstərir ki, «kiçik və zəif» dövlətlərin fövqəldövlətlərə qarşı çağırışı artıq adi hala çevrilməkdədir (5, 11; 23).

Keçən əsrin ortalarından dünyada baş verən proseslər yuxarıda çox qütbçülərin fikirlərini təsdiq etsə də, bu proses əsasən XXI əsrin əvvəllərinə qədər davam etdi. Artıq müasir dövrdəki reallıq bunun əksini göstərir. Drukerin təbirincə desək, «Bir şey şübhəsizdir ki, Rusiya – istər kommunist kimi, eləcə də istər postkommunist kimi – ortaq heç vaxt «fövqəldövlət» olmayacaq. Bu həmçinin Amerikaya da aiddir. Mahiyyət etibarı ilə, ümumiyyətlə heç vaxt fövqəldövlət olmayacaq. Artıq dünya siyasətinin heç bir «mərkəzi» olmayacaq (6, 57; 398).

Müasir dövrdə qlobal dünya hegemonluğuna can atan hər bir fövqəldövlət qarşısında duran əsas məsələ daima öz statusunu təsdiq etmək, öz hərbi güc və iradəsinin nümayişi üçün yeni forma, vasitə və istiqamətlər aramaqdan ibarətdir. Burada vacib məsələ dövlətin öz hegemonluğunun legitimliyini təsdiq etməkdən ötrü gündəlik referenduma ehtiyacın olmasıdır. K.Hacıyevin fikrincə, Amerikanın problemi ondadır ki, bu cür «referendum» o, «kobud güc» vasitəsilə həyata keçirməyə başlayır. Paradoksal şəkildə, mübaliğəsiz hərbi güc, xüsusən ən yeni yüksək dəqiqlikli silah ABŞ üçün müasirliyin çağırışına cavab vermək üçün yeni üsulların axtarışı yollarını çətinləşdirir» (7, 11; 23).

Politoloq K.Hacıyevin kobud güclə bağlı ABŞ-ın ünvanına söylədiyi «ABŞ-ın problemi onun öz hegemonluğunu təsdiq etməkdən ötrü kobud gücə üstünlük verməsindədir» fikrini Rusiyaya da aid etmək olar. Zənnimcə, əgər ABŞ daha çox XXI əsrin sonlarından başlayaraq bu xəstəliyə tutulmağa başlamışdısa, Rusiya tarixən bu problemdən əziyyət çəkir.

Professor A.Şükürovun fikrincə amerikanlaşma anlayışı düzgün deyildir. Çünki mədəni sahədə qloballaşma təkcə Amerikanın deyil, ümumiyyətlə Qərb dəyərlərinin sürətlə yayılmasıdır. Amma son illərin təcrübəsi bir daha sübut edir ki, Şərqin mənəvi dəyərləri daha ümumbəşəri, daha humanist prinsiplidir. Ona görə də, bir tərəfin mənəvi dəyərlərinin qəbul edilməsi qətiyyən məntiqi görünə bilməz. Deməli, qloballaşma amerikanlaşma ilə eyni deyildir. Bu bəşəriyyət tarixində keyfiyyətcə yeni bir prosesdir (8, 13).

Bir sıra müəlliflər ABŞ-ın fövqəldövlət rolunu itirməsini hegemonluğun və nüfuzun əks tərəfi ilə əlaqələndirirlər. Məsələn, ABŞ bazarı o qədər böyük idi ki, amerikanlar onu özü-özünün tənzimləyicisi hesab edirlər. Digər dünya isə «dəridən-qabıqdan» çıxaraq onu və onları başa düşməyə çalışırdı. Onlar isə (amerikanlar) digərləri kimi hərəkət edərək – dilləri, mədəniyyətləri, bazarları öyrənməyi vacib bilməlidirlər. Bu gün bunlar ABŞ-ın rəqabət qabiliyyətinə təsir göstərə bilər. Elə ingilis dilinin beynəlxalq ünsiyyət dilinə çevrilməsini nümunə götürək. Amerikanlar bundan razıdırlar. Beləki onlar rahat dünya səyahətinə çıxır və xaricdə rahat bizneslə məşğul ola bilirlər. Bu proses eyni zamanda xaricilərə iki mədəniyyət və iki bazarı rahat başa düşməyə, onlara yiyələnməyə imkan yaradır. Onlar ingilis dilini, bundan həmçinin doğma çin, hind və portuqal dillərini bilirlər. Onlar həm amerikan bazarlarında, həm də daxili – çin, hind və braziliya bazarlarında fəaliyyət göstərə bilirlər. Amerikanlar isə onlardan fərqli olaraq özlərində digər xalqların daxili dünyalarına yiyələnmək qabiliyyətini aşılaya bilməyiblər. Artıq faktiki olaraq, üçüncü dünya mövcud deyil. Amerika kompaniyaları Braziliya və Hindistana nə gətirə

bilərlər? ABŞ-ın rəqabət üstünlüyü nədədir? Bu suallara cavab vermək istəyən çox az amerikan biznesmeni tapmaq olar. Bu sualın cavabını iqtisadçı Mortin Vuff belə cavablandırır ki, əvvəllər iqtisadiyyat elmi iki əsas amil – əmək və kapital üzərində cəmlənirdi Lakin indi bu iki amil hamının əldə edə biləcəyi əmtəyə çevrilmişdir. Bu gün iqtisadiyyatın əhəmiyyəti bütövlükdə ideyalar və enerji daşıyıcıları ilə xarakterizə olunur. Digərləri üçün ideya və enerji mənbəyi olan ölkə çiçəklənməsini təmin etmək qabiliyyətinə malikdir (9).

XX əsrin sonlarında «Bir fövqəldövlət, sonra əhəmiyyətsiz ölkələr və çoxlu kiçik dövlətlər... Məhz belə sistemdə hökmran dövlət beynəlxalq problemləri təkbaşına, səmərəli idarəetməyə qabildir və başqa dövlətlərin heç bir ittifaqı onun qarşısını ala bilməz» ifadələrinin müəllifi olan, Amerika hegemonluğunun əsas ideoloqlarından bəlkə də birincisi olan H.Kissencerin mövqeyində baş verən yumşalmalar Amerika hegemonluğunun büdrəməsindən xəbər verir. H.Kissencerin Ingiltərənin «Independent» qəzetindəki «Yeni dünya nizamının yaradılması vacibdir – yoxsa xaos dəf edilməzdir» adlı son məqaləsi dediklərimizin əyani sübutudur. Bu məqalədə H.Kissencerin açıqladığı yeni dünya düzəni çoxtərəfli əməkdaşlığa əsaslanır. Bu nizamda ABŞ-Çin əməkdaşlığına xüsusi önəm verilir. Tədqiqatçı qeyd edir ki, Sakit okeanın əks sahillərində yerləşən hər iki ölkə dünya maliyyə böhranının nəticələrini aradan qaldırmaq üçün ikitərəfli əməkdaşlığa ehtiyac duyurlar. Tədqiqatçı müasir qloballaşmada Çinin mühüm rolundan danışır. Kissencer yazır: «Liderlərin bu günkü nəslinin II müharibədən sonrakı dövrdə transatlantik münasibətlərlə olduğu kimi Sakit okeanın hər iki tərəfindəki dövlətlərin qarşılıqlı münasibətlərini «ümumi tale layihəsi» əsasında transformasiya etmək imkanları var. Fərq ondadır ki, bu günkü mövcud çağırışlar daha çox siyasi və iqtisadi xarakter daşıyır, nəinki hərbi. Bu layihə ona enerji, kütləvi qırğın silahının yayılmaması və ətraf mühitin mühafizəsi kimi konkret məsələlərlə məşğul olan ümumi Sakit okean və regional strukturlar çərçivəsində birləşən Yaponiya, Koreya, Hindistan, Indoneziya, Avstraliya və Çin Zellandiya kimi dövlətləri özünə daxil etməlidir».

Əsas məsələlərdən biri müasir dünyada ABŞ-ın necə hərəkət etməsidir. Kissencerin fikrincə, ABŞ hər bir problemin konkret zaman ölçülü müəyyən proqramı çərçivəsində həll edilməlidir kimi inadkar tələblərindən əl çəkməlidir. O qeyd edir ki, amerikanlar real əldə olunanlar çərçivəsində hərəkət etməyə öyrənməlidir. Amerikanlar son məqsədə bütün nüansları nəzərə almaqla yavaş-yavaş nail olmağa hazır olmalıdırlar (10).

2008-ci ilin seçkilərində böyük üstünlüklə qalib gələn ABŞ-ın yeni prezidenti B.Obamanın islam dünyası ilə dialoqa hazır olduğunu söyləməsi, Quantanama adasındakı hərbi əsir düşərgəsini birillik bağlamaq haqqında qərarı, ABŞ-ın Dövlət katibi H.Klintonun ilk səfərini 1996-cı ildən bəri münasibətləri soyuq olan Çinə etməsi və Iraqdakı ABŞ qoşunlarının 2010-cu ilin avqustuna qədər oradan çıxarılacağı haqqında bəyannamələr ABŞ-ın xarici siyasətində baş verən müsbət dəyişikliklərin əyani nümunəsidir. Bu bəlkə də ABŞ-ın son 8 ildə beynəlxalq arenada itirdiyi nüfuzunu geri qaytarmaq cəhdidir. Bunu həm də mövcud şərait tələb edir. Mövcud şərait isə dünyada baş verən problemlərin qarşılıqlı əməkdaşlıq və qarşılıqlı fəaliyyət birliyi əsasında həll edilməsini tələb edir ki, bu da çoxqütblü və çoxmərkəzli dünya düzəni ideyasını daha da aktuallaşdırır. Məqalənin yekunu kimi ümummilli liderimiz Heydər Əliyevin 2000-ci il 7 sentyabrda Nyu Yorkda BMT-nin «Əsrin zirvə görüşü» adlı sessiyasında XXI əsrin inkişaf prioritetlərini müəyyən edən müdrik və

uzaqgörən çıxışından kiçik bir məqamı xatırlatmaq yerinə düşərdi: «Qloballaşma müasir dünyanın inkişafının əsas meyli kimi çıxış edir. Qloballaşma prosesi heç də həmişə optimizmin təsdiq olunması ilə müşayiət olunmur. Bu mükəmməl və çoxmənalı prosesin perspektivləri bizim hamımızı dərindən düşünməyə vadar edir. Qloballaşma davamlı inkişafın təmin olunmasına, dövlətlərin müstəqilliyinə, idarəetmə sistemlərinin sabitliyinə dəstək olmalı, iqtisadi münasibətlərdə ayrı seçkiliyin aradan qaldırılmasına, xalqların rifahının artırılmasına imkan yaratmalıdır» (Vozrojdenie – XXI vek. 2001, №1, 4).

## QEYDLƏR


1. Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı, 2005, s.130; 498 s.
2. Гранин Ю.Д. Глобализации или «вестернизация». Москва, Вопросы философии, 2008, №1 с.3; с. 13
3. Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı, 2005, s.136.
4. Валерстайн И. Америка и мир: сегодня, вчера и завтар. Москва, Свободная мысль, 1995, №4, с.75; с. 150
5. Гаджиев К.С. К поличентрическому миро-норядку. Москва: «Полис», 2007, №4, с. 11; с.23.
6. Друкер П. Новые реальности. В правительстве и политике, в экономике и бизнесе, в обществе и мировоззрений. М., 1994, с.57; с. 398.
7. Гаджиев К.С. К толичентрическому миру. Москва, «Полис», 2007, №4, с.11
8. Şükürov A. Qloballaşma: mif və tarix. Bakı:«Təknur, s.13, 273 s.
9. Закария Ф. Будущее американского великодержавия (Foreign Appairs USA) 05 мая, 2008. http:www.иносми.ру / транслатион /241159.
10. Киссенджер Г. Необходимо создатство новый миропорядок – иначе хаос неминиеум. щттп www||стратег.net).



## С.Т.ДЖАФАРОВ


## РЕЗЮМЕ


Данная статья посвящена об исторических изменениях в мире. Процессы, происходящие в начале XXI – века утоничность победы государств, применяюших “острые силы” к малым и слабым государствам, а переходяща и временна ,утонична. На фоне проииворечий, происходящие в США – Афганистан, США – Ирак, США – Иран, Россия – Грузия попытка навязывались свою волю одного государства другому теряет свою силу и притягательность. Глобальный кризис, происшедший в 2008 году дал особый толчок этому процессу.



## S.T.CAFAROV


## SUMMARY


This article deals about the historical changes around the world. The author ties to give his opinion and analyses the world global situation. The events which happened at the beginning of the XX century prove to super power countries that the power is transient and dream. Historical background of USA-Afghanistan, USA-Iraq, USA-Iran, and Russia-Georgia, war it again proved that one power cannot dictate to others at the beginning of III thousands. The world crisis gave a push of these corporations which happened in 2008.